Azad Azərbaycan

15 oktyabr 2020-ci il №92 (3635)



# Azərbaycan xalqı Vətən müharibəsində Qələbə çalacaq!

*"Bilsin Ana torpaq, eşitsin Vətən:*
*Müsəlləh əsgərəm mən də bu gündən!"*
Səməd Vurğun

**27 sentyabr 2020-ci il tarixdə səhər saat 6:00-dan başlayaraq Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək, ağır artilleriya qurğularından hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutdu. Azərbaycan tərəfi əks-hücüm əməliyyatına başlayaraq artıq 30 il ona qarşı müharibə aparan Ermənistana cavab olaraq Vətən müharibəsinə başladı. 15 gündən çox davam edən hərbi əməliyyatlar zamanı şanlı Azərbaycan Ordusunun əsgərləri namərd erməni işğalçılarını müqəddəs Qarabağ torpaqlarından iti qovan kimi qovurlar. Bu və digər vətənpərvərlik hisslərini oyadan sözləri Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər, Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin ən layiqli və sədaqətli davamçısı möhtərəm İlham Heydər oğlu Əliyev bir neçə gün öncə Azərbaycan xalqına müraciətində demişdir.**

Azərbaycan Ordusu əsas strateji nöqtələri tutub və döyüş mövqelərini atıb qaçan ermənilərin çoxlu sayda hərbi sursatı, tankları, hərbi avtomobilləri və başqa zirehli texnikası qənimət kimi ələ keçirilib. Hər bir Azərbaycan vətəndaşı millətindən asılı olmayaraq bu günlər sonsuz qürur hissləri keçirdir. Bu günlər bütün dünyadan dost da, düşmən də Azərbaycanın Vətən müharibəsini izləyir. Azərbaycanın haqlı mövqeyini müdafiə edən dövlətlərin və təşkilatların sayı isə gün-gündən artır. Ermənistan hərbi-siyasi cəhətdən dalana dirənib. Bu da təbiidir, çünki, Azərbaycan Respublikası haqq-ədalət uğrunda müharibə aparır. Bu dövlətimizin suveren hüququdur. Ermənistan dövləti və onun baş naziri Nikol Paşinyan isə dünya miqyasında siyasi avantürizmin və siyasi debilizmin acı nümunəsidir.

Dünya ölkələri Azərbaycana dəstək göstərir, onun rəhbəri İlham Əliyevin son dövrlər dünya mətbuatı vasitəsilə Ermənistanın işğalçı simasını açan müsahibə və çıxışlarını oxuyub bir daha Ermənistanın təcavüzkar bir dövlət olduğunu get-gedə anlayır. Bu çıxışlar diplomatik meydanda da doğma ölkəmizin mövqelərini möhkəmləndirib, üzdəniraq qonşumuzun nokauta düşməyini yaxınlaşdırır.



Mən də bir sıravi azərbaycanlı, şanlı ordumuzun müsəllah əsgər-şairi kimi bu ruh yüksəkliyini ilahidən gələn ilhamla yaşayıram. İkinci Dünya Müharibəsi illərində keçmiş Sovet İttifaqının alman faşizminə qarşı 1941-1945-ci illərdə apardığı müharibədə igid Azərbaycan oğullarının göstərdiyi şücaət gözümün önündə canlanır. Həzi Aslanov, İsrafil Məmmədov, Gəray Əsədov, Mehdi Hüseynzadə, Müseyib Allahverdiyev və digər çoxsaylı qəhrəmanlarımız döyüş meydanlarında misilsiz və təkrarolunmaz şücaət göstərərək ən yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Azərbaycanın görkəmli şair və yazıçıları qəhrəmanlarımız haqqında neçə-neçə parlaq əsərlər yaradıb, indiki nəsillərimizə onların ölməz obrazlarını çatdırıblar. Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Hüseyn Abbaszadə və başqa qələm ustadlarımızın yaratdığı əsərlər bu günlərdə də öz aktuallığını itirməyib və Azərbaycan əsgərini müqəddəs Qarabağ torpaqlarını tez bir zamanda geri qaytarmağa çağırır. Bu gün Azərbaycanın qeyrətli şair və yazıçıları yenidən qələmi silaha çevirərək döyüşən qəhrəman igidlərimizin şücaətini vəsf edirlər.

**Müasir Azərbaycan poeziyasının parlaq nümayəndəsi, şairə -publisist, Prezident təqaüdçüsü Qüləmail Muradın İkinci Dünya Müharibəsində alan faşizmi üzərində qələbənin 75 illiyinə həsr etdiyi və Sovet İttifaqı Qəhrəmanı Müseyib Allehverdiyevin şərəfli döyüş yolunu işıqlandıran "Döyüş yolları" poemasında belə sətirlər var:**

*İlanın başını əzməliyik biz,*
*Düşmənin canını üzməliyik biz,*
*Yenə Qarabağda gəzməliyik biz,*
*İgid əsgərim, şəhid əsgərim, İrəli!*

Belə sözlərdən sonra döyüşə getməyib bəs nə edəsən?! Mən də öz doğma Vətənim-Azərbaycanım uğrunda canımdan keçməyə hazıram!

Dahilər Vətən haqqında çox müdrik sözlər deyib: "Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün". **(N.Nərimanov)**

"Vətən hüquqları valideyn hüquqlarından daha genişdir". **(Platon)**

"Mən ya vətənim rifahi üçün yaşamalı, yaxud onunla birlikdə məhv olmalıyam". **(M.T.Siseron)**

"Vətən uğrunda ölmək şərəfdir". **(F.K.Horatsi)**

"Vətən hissi izahedilməzdir, biz onu analıq hissi ilə bağlayırıq". **(M.M.Prişvin)**

"Vətənin böyüklüyü onun sıravi vətəndaşlarının böyüklüyü ilə müəyyən olunur". **(T.V.Vilson)**

*"Vətəni sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz.*
*Vətənim verdi mənə nanü-nəmək,*
*Vətəni məncə unutmaq nə demək".*
**(Abbas Səhhət)**

Azərbaycan dilində yazdığım "Heydərlə İlhamdır - sönməz çırağım!" şerimi oxuculara təqdim edirəm:

**Heydərlə İlhamdır - sönməz çırağım!**

*"Qarabağ! Azərbaycanın qanlı yarası,*
*Az qalıb, ordumuz məlhəm qoyacaq.*
*Ermənlər qaçırlar, deməк tezliklə,*
*Düşmənin qanıyla torpaq doyacaq.*

*Qoç igidlərimiz döyüşür möhkəm,*
*Erməni dığasın burnun ovacaq.*
*Namərdlər pozurdu hey atəşkəsi,*
*Çıxdığı yerədək geri qovacaq.*

*Hardadır "Minsk qrupu", gəlməyir səsi?*
*Mən şəxsən bezmişəm boş-boş sözlərdən,*
*Tabeyik dönə-dönə ən ali əmrə!*
*Qəlbimiz fərəhlə yenə dolacaq*

*Son döyüşə çağırır Ölməz Sərkərdə,*
*Ali Baş Komandan bizə hay verir,*
*Qələbə anımızı hey tezləşdirir!*
*Qarabağ bizimdir, bizim olacaq!*

*Biz hədsiz inanıb bilirik: bu il*
*Torpaqlar işğaldan azad olacaq!*
*Çiçəklən, ey, doğma Azərbaycanım!*
*HEYDƏRLƏ İLHAMDIR sönməz çırağım!"*

**Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü ərəfəsində Azərbaycan xalqının Vətən müharibəsində tarixi Qələbə çalacağına heç kim şübhə etmir! Qarabağ Azərbaycandır!**

**Fikrət KAZIM**